# AŞİQLİK ZİRVƏSİ

## (“Leyli və Məcnun” haqqında)



Məmməd Qocayev

“Xəmsə”nin üçüncü əsəri olan **“Leyli və Məcnun”** öz mövzusunu xalq əfsanələrindən götürmüşdür. Adətən, müəllif tarixi mövzuya müraciət edərkən iki məqsəddən birini güdür: ya tarixi material özözlüyündə dərin fəlsəfi məzmuna malikdir və həmin dövrün mahiyyətini özündə əks etdirir, ya da müəllifin yaşadığı dövrlə həmahəng səsləşir və onu narahat edən məsələlərin açılmasına xidmət edir.

Bu baxımdan “Leyli və Məcnun” əfsanəsinin tarixi mahiyyəti ondadır ki, o, islama qədərki Şərq dünyasının ruhi və mənəvi vəziyyətini özündə əks etdirməklə yanaşı, Nizamini narahat edən insan konsepsiyasının açılması üçün əlverişli materialdır. İslamın yaranmasının ərəfəsi olan bu dövr bəşəriyyətin ruhi-mənəvi tarixində vacib bir keçid mərhələsidir. Belə tarixi dövrlər, adətən, ziddiyyətlərlə, dərin və kəskin münaqişələrlə, insan qəlbində və şüurunda baş verən daxili təbəddülatlarla zəngin olur ki, bu da insan mahiyyətinin açılması üçün yararlı material hesab olunmalıdır. İntibah dövrü bədii təfəkkürün diqqətini cəlb edən vacib məsələlərdən biri, bəlkə də ən başlıcası insan problemidir. **Renessans dövrü sənətini nə sırf tarixi, nə**



**də sırf müasir məsələlər maraqlandırır. Onu maraqlandıran əzəli və əbədi olan insan məsələsidir; insanın konkret tarixi və müasir mahiyyəti deyil, onun təkamülü məsələsidir. Ona görə də Renessans dövrü ədəbiyyatı bir qayda olaraq öz mövzusunu tarixi hadisələrdən və keçmiş dövrlərdən götürür. Burada bir daha təkrar etməyi lazım bilirik ki, Nizami poemalarının hamısında mövzuların islama qədərki dövrdən götürülməsi heç də təsadüfi deyil. Zərdüştlüyün və bütpərəstliyin islam dini ilə əvəz edilməsi Şərq dünyasında ən əzəmətli və ən mürəkkəb bir hadisə idi.** İslamın gəlişi ilə Şərq dünyası öz ruhi yetkinlik dövrünə qədəm qoyur. Bu vacib keçid mərhələsinin timsalında Nizami insanın ruhi mahiyyətini açmağa cəhd göstərir və bu yolda böyük uğurlar qazanır.

Yuxarıda qeyd etmişdik ki, “Leyli və Məcnun” poemasında “Xosrov və Şirin” tematikasının bir qolu, yəni eşq mövzusu davam etdirilir. Əgər “Xosrov və Şirin” poemasında eşq şahlıqla yanaşı iki aparıcı mövzudan biri idisə, “Leyli və Məcnun”da o, yeganə mövzudur. Əgər “Xosrov və Şirin”də eşq öz gözəlliyi və cazibədarlığı, şirinliyi və acılığı, hicranı və vüsalı ilə təsvir olunurdusa, “Leyli və Məcnun”da eşq hicran vəziyyətində, ağrılıacılı bir bəla kimi, bir dəlilik kimi təsvir olunur, sırf ruhi bir vəziyyət kimi səciyyələndirilir. Beləliklə də eşqin daxili psixoloji və ruhi mahiyyəti ön plana çəkilir. Burada eşq macəralarına xas olan vüsal və nəşə, eyş-işrət və məhəbbət kamı yoxdur. Bütün bunlar ruhi mənaya qurban verilmişdir. Məcnun real həyatdan, insanlardan, hətta özündən belə təcrid olunmuş bir ruhpərəst kimi təsvir olunur.

Əgər Xosrovun Şirinə olan eşqi ideallıqdan reallığa, rühanilikdən təbiiliyə doğru inkişaf edirsə, Məcnunun Leyliyə olan məhəbbəti reallıqdan rühaniliyə doğru yüksəlir. Xosrov əvvəlcə Şirini xəyalən sevdi, sonra isə onun özü ilə görüşdü. Şirin Xosrova əvvəlcə əlçatmaz bir ideal kimi görünür, sonra isə onun məşuqəsi və övrəti olur. Məcnun eşqi isə real ünsiyyətdən başlanıb ideal ruhi məqamda tamama yetir. Məcnun əvvəlcə Leylinin özünü sevir, sonra isə onun xəyalı ilə kifayətlənir; bütün real istəklər və məqsədlər ortadan götürülür, ruhun hakimiyyəti başlanır. Bu da ağıllı Qeysin dəli Məcnuna çevrilməsi kimi baş verir.

Xosrov bir insan kimi həm eşqdə, həm də şahlıqda natamam idi, mütləqlikdən uzaq idi. O nə aşiq kimi, nə də şah kimi ideal səviyyəsinə yüksələ bilmədi. Bunu Xosrovun şahlıqda Bəhram Çubinə, eşqdə isə Fərhada uduzması açıq-aydın göstərir. Məcnun isə eşqdə ideal səviyyəsinə yüksəldi, mütləq aşiq kimi eşq zirvəsini fəth etdi. Xosrovun fərdi ruhu ehtiraslar, həvəslər, mənsəblər və şövkətlər girdabında uyuyurdu. Eşq onu bu qəflət yuxusundan oyatdı və ruhi aləmə qovuşdurdu. Xosrov xarakterinin təkamülü onun fiziki varlığı ilə ruhi varlığının münaqişəsindən ruhun qələbəsinə doğrudur. Ruhun bu azadlığı Xosrov eşqinin Xosrov həvəsləri üzərində qələbəsindən sonra baş verir. Xosrovun sonu Məcnunun əvvəlidir. **Xosrov keşməkeşlərdən, çaşqınlıqlardan keçib eşqə tapındı. Məcnun elə eşqdən başlayır. Xosrovun ölümü onun ruhunun oyanması ilə bir vaxta düşür. Fiziki ölüm ruhi həyatın başlanğıcı olur. Məcnunun həyatı isə eşqdən, yəni birbaşa ruhi oyanışdan başlanır. Məcnunun bu dünyadakı həyatı onun ruhunun həyatıdır.** Fərdin oyanmış ruhu sanki Məcnunun simasında öz real, dünyəvi həyatını yaşayır. Məcnunun ölümü isə fərdi ruhun ilahi ruhla birləşməsi kimi səciyyələnir. Leyli və Məcnunun cənnətdəki həyatının təsviri bir növ aşiqlərin ruhi saflığının məntiqi davamı kimi başa düşülməlidir. **Şir biləkli Xosrov və quru cəsədə oxşayan Məcnun - fiziki və ruhi mövcudluğun təcəssümləridirlər. Vücud qoymadı Xosrovun ruhu oyansın. Ruh qoymadı Məcnunun vücudu oyansın. Xosrovun ruhu, Məcnunun isə vücudu qəflətdəydi. Hər iki qəhrəmanı birləşdirən bir şey var ki, o da onların fiziki ölümüdür.**

Nizami yaradıcılığında insan ya şan-şöhrət, şövkət və dövlət sahibi kimi, ya da eşq fədaisi kimi təsvir edilir. Hər iki halda Nizami insanın nəyə qadir olduğunu, necə əzəmətli bir varlıq olduğunu təsdiq edir. Lakin Nizami yaradıcılığında insan heç vaxt mütləq qalib və mütləq qüvvə kimi təsvir olunmur. İnsan çox şeyə qadirdir, lakin o, mütləq deyildir. Ona görə də Nizaminin bütün qəhrəmanları dünyada ad-san çıxarmış insanlar olmaqla belə faciəvi ölümdən yaxa qurtara bilmirlər. Onlardan heç biri mütləq qələbə çala bilmir. Xosrovun xaincəsinə öldürülməsi, Məcnunun həsrətli ölümü, Bəhramın mağarada yox olması, İsgəndərin dünyadan vaxtsız köçməsi - bütün bunlar fərdin məğlubiyyəti, onun ilahi qüvvə qarşısında acizliyinin ifadəsidir.

Məcnunun Xosrovdan üstünlüyü ondadır ki, o, bəsit, ötəri həvəsləri və dəyərləri dəf edib, saf ruhun dərgahına yüksələ bildi. Məcnun eşqi tam mənada ruhi mövcudluqdur. Lakin insanın təbii hisslərdən yaxa qurtarıb, sırf ruhi mahiyyətə tapınmasını Nizami hələ insan üçün ən ali məqsəd və onun mənəvi-tarixi təkamülündəki son mərhələ hesab etmir. Məcnun ruhi həyatın zirvəsinə çatdı, lakin son məqsədə çata bilmədi. İnsan üçün ən ali və son məqsəd isə, Nizaminin fikrincə, şəxsiyyətin ilahi varlığa qovuşmasıdır, fərdi ruhun ilahi ruha çatmasıdır ki, bu da məxluqun xaliqə sonsuz və təmənnasız eşqində baş verir. Məcnun bu zirvəyə yüksələ bilmədi. O, ruhən saflaşdı, yerdən, mühitdən, insanlardan, hətta öz mənliyindən belə azad oldu, ruhi mövcudluğun şirinliyini daddı, lakin fərdi ruhun son istinadgahı olan ilahi hikməti dərk edə bilmədi. Allah əvəzinə o, insanı sevdi, ilahi məqamda isə məşuqəni gördü. Leyli Məcnunun nəzərində ilahiləşdi, qibləgaha çevrildi. Öz rəbbisinə çatmalı olan Adəm övladı özü kimisinə, yəni adi bir bəndəyə tapındı və onu Tanrı qədər sevdi.

Nizaminin insanı real aləmdən ruhi aləmə doğru əzablı və şərəfli bir yol gedir. Bu yolda Məcnun Xosrovdan bir addım qabağa getmiş oldu. O, bütün təbii və ictimai dəyərlərdən, real həyatdan üz döndərmiş, ruhi və mənəvi dəyərlərə, ideal eşqə üz tutmuş, bu yolda böyük fədakarlıq göstərmiş, insan xilqətinin aliliyini və qadirliyini təsdiq etmiş, lakin son məqsədə, ilahi aləmə çata bilməmişdir. Onun faciəsinin səbəbi də elə bundadır. Leylinin ölümqabağı Məcnuna çatdırmaq istədiyi vəsiyyətində o, deyir:

***Amandır, bundan sonra gözünü***
***Allahın kərəmindən başqa bir kəsə dikmə!***
***Gördünmü ki, yanlış yola düşdün,***
***Özün kimi birisinə göz dikdin?***

Beləliklə, Məcnunun ləyaqəti onun qəbahətinə çevrilir, eşqdəki fədakarlığı onun faciəsini təyin edir. Leylini intəhasız bir məhəbbətlə sevməsi Məcnunun fədakarlığıdır, onun ən böyük ləyaqətidir. Lakin onun sevən qəlbində qadının Allahın yerini tutması bu ləyaqəti qəbahətə çevirir. Bununla da məcnunluq paradoksu yaranır. Paradoks ona görə deyirik ki, məcnunluq həm saf eşqdir, həm də dəlilik, həm möhtəşəmlikdir, həm də miskinlik, həm şərəfdir, həm də qüsur, həm qələbədir, həm də məğlubiyyət.

Məcnun Allahı axtarmadı, ona tapınmadı. O, daim Leylini axtardı və ona tapındı. Lakin eşqin bu əzablı və ziddiyyətli yolu onu cənnətə gətirib çıxardı. Məcnunluq insanın ruhi kamillik dərəcəsidir. **Məcnunluq Adəm övladının cənnətə qayıtmaq cəhdidir. Əgər Xosrov və Şirin məhəbbəti cənnətdən qovulmuşlar nəslinin yerdəki ziddiyyətli və qüsurlu məhəbbətidirsə, Leyli və Məcnun eşqi insan xilqətinin qüsursuz və saf eşqidir ki, bu da ruhi kamillik baxımından cənnət əhlinə xas olan xüsusiyyətdir.**

Nizami gözəl dərk edirdi ki, eşq insan ruhunu sarsıdan və ucaldan ən güclü ehtiraslardan biri, bəlkə də dini ehtizazla rəqabətə girə biləcək yeganə ehtirasdır. Eşq (qadına məhəbbət) insanın özünü unutması, özündən əl üzüb başqa bir fərdlə ruhən birləşməsidir. Ən geniş və ali mənada eşq (Allaha məhəbbət) insanın özündən əl çəkib dünyayla, kainatla birləşməsi, onunla həmahəng olmasıdır. Eşqdə fərdi insan mövcudluğu həmişə müştərək mövcudluğa can atır. N.O.Losski qeyd edir ki, “eşqin ən vacib cəhətlərindən biri ondan ibarətdir ki, sevdiyimi mən öz mahiyyətimə daxil edirəm və o, ontoloji cəhətdən mənim “mən”imlə və mənim həyatımla birləşmiş olur”. Alim yazır ki, “məhəbbətin yaranması təkcə subyektiv-psixoloji hal deyil, ontoloji dəyişkənlikdir”.

Eşq vasitəsilə sanki insan itirilmiş harmoniyanı qaytarmaq istəyir. Bəşəriyyət tarixinin ilk dövrlərində insan təbiətin tərkib hissəsi kimi makroaləmə üzvi surətdə daxil idi və onunla dünya arasında ayrılıq və ziddiyyət yox idi. İnsan özünü fərd kimi dərk etdikdən sonra təbiətdən ayrıldı və beləliklə də, ilkin harmoniya itirilmiş oldu. Daha yüksək kamillik mərhələsində insan yenidən o itirilmiş harmoniyanı qaytarmağa cəhd göstərir və bu cəhd daha yüksək səviyyədə - ruhi səviyyədə baş verir. İnsan ruhən dünyayla yekdilliyə can atır. Bu prosesin son və ən yüksək mərhələsi dindir - insanın Allaha tapınmasıdır, onun ilkin mərhələsi isə eşqdir - insanın insana tapınmasıdır. Qadına məhəbbətdə fərd yalnız öz şəxsi təkliyini dəf edir, ruhən başqa məxluqla birləşir. Allaha məhəbbətdə isə ümumən millət və bəşəriyyət bir ruhi-mənəvi yekdilliyə və harmoniyaya can atır.

Məcnun eşqinin mənası ondadır ki, bu eşq fərdi ruhi təklik vəziyətindən çıxarıb, başqa bir fərdə qovuşdurur. Bir növ iki fərdi ruhun birləşməsi hadisəsi baş verir. Məcnun məhəbbəti bütpərəst məhəbbətidir. Burada insan ruhu öz mütləq dayağını axtarır. Məcnunluq da bütpərəstlik kimi insanın mütləq ruha doğru irəliləyişində vacib mərhələlərdən biridir. İnsan vücudu təbiətə, ruhu isə Allaha



qovuşmaqla rahatlıq tapır. Bəşəriyyət bütpərəstlikdən allahpərəstliyə doğru uzun bir inkişaf yolu keçir. Bu yolu itirilmiş harmoniyanın axtarışı yolu hesab etmək olar. Yeni ruhi harmoniyanın yaranması dində və Allaha eşqdə baş verir. Məcnun məhəbbətində ilahi eşqin sədası duyulur. Məcnunun Leyliyə olan məhəbbəti insanın Allaha məhəbbətinə aparan yolun başlanğıcıdır. Təbiətdən ayrılmış insan, yəni özünü ruhi bir varlıq kimi dərk etmiş və təbii harmoniyanı itirmiş insan ruhi harmoniya axtarır, yəni öz Allahı ilə birləşməyə can atır. Məcnun eşqi məhz bu məqamın ifadəsidir.

Eşq vücudu tərk edib ruha tapınmaqdır. Vücudun tam inkarı və ruhun tam qələbəsi ölümdə baş verir. Məcnun eşqi insanın hələ öz sağlığında vücudu dəf edib ruha qovuşmasıdır, sağ ikən axirətə köçməsidir. İnsan həyatı sevdiyi qədər ölümü də sevir, vücudun nəşəsi qədər ruhun da nəşəsi şirindir. Ona görə də ruh əhli üçün ölüm həyat qədər cazibədardır. Məcnun hər gün ölüb dirilir, varlıqla yoxluq arasında yaşayır. Vücudu sevmək insanı nəşə və həvəslər girdabına qərq edərkən, ruhu sevmək insanı iztirablar sonsuzluğuna gətirib çıxarır.

Qadına məhəbbətlə Allaha məhəbbət insan qəlbində həmişə rəqabətdə olmuşdur. **İlahi eşq insanı həmişə göylərə səsləmiş, ideal saflığa sövq etmiş, ötəri və bəsit həvəslərdən xilas etmişdir. Qadına məhəbbət isə həmişə insanı göylərdən yerə endirmiş, real və bəsit nəşələrə sövq etmişdir. Allaha və qadına məhəbbət insan həyatının iki qütbünü - ideal və real tərəflərini təşkil edir. Əli göylərdə qalan insan heç vaxt ayağını yerdən üzə bilməmişdir. Bu iki əks qütbləri öz qəlbində birləşdirən yalnız Məcnun olmuşdur. Leylinin simasında o, qadını göylərə qaldırmış, ilahini yerlərə endirmişdir. Məcnun məhəbbətində yerlə göy birləşmişdir. Bununla da dünyada ən şirin və ən acı, ən nəşəli və ən iztirablı məhəbbət yaranmışdır - Məcnun məhəbbəti.**

Qadını ilahi qədər sevən aşiq möhtəşəmdir, lakin qadını ilahi məqamında görən aşiq həm də miskindir, dəlidir. Məcnun insanın ilahi ehtiyacını duyan, lakin ilahi əvəzinə məşuqə tapan əzəmətli, həm də sərsəri bir aşiqdir.

*(Ardı var)*